**2009-cu il dekabrın 23-də keçirilmiş bələdiyyə seçkiləri ilə əlaqədar vətəndaş Ataxan Kazımlının və digərlərinin 5 yanvar 2010-cu il tarixli 438 saylı, vətəndaş Tahirə Köçəriyevanın 5 yanvar 2010-cu il tarixli 500 saylı, vətəndaş Şakir Bünyadovun 5 yanvar 2010-cu il tarixli 514 saylı, vətəndaş İlqar Qasımovun və digərlərinin 7 yanvar 2010-cu il tarixli 562 saylı müraciətlərinə baxılması barədə Azərbaycan Respublikası Mərkəzi Seçki Komissiyasının**

**Q Ə R A R I**

2009-cu il dekabrın 23-də keçirilmiş bələdiyyə seçkilərində 83 saylı Ağcabədi-Ağdam seçki dairəsindən Hüsülü bələdiyyəsinin üzvlüyünə namizəd Tahirə Köçəriyeva, Cəlilabad rayonu Əliabad kənd sakini Şakir Bünyatov, 66 saylı Biləsuvar seçki dairəsindən Əsgərabad bələdiyyəsinin üzvlüyünə namizəd Ataxan Kazımlı və digərləri, 80 saylı İmişli-Beyləqan seçki dairəsin üzrə bələdiyyə üzvlüyünə namizəd İlqar Qasımov və digərləri Azərbaycan Respublikasının Mərkəzi Seçki Komissiyasına yazılı müraciət edərək, bəzi seçki məntəqələrində səsvermə günü müxtəlif səpkidə qanun pozuntularına yol verildiyini bildirərək qanunla müəyyən olunmuş qaydada araşdırmaların aparılmasını xahiş etmişlər.

Müraciətlər Azərbaycan Respublikası Seçki Məcəlləsinin 112 və 112.1-ci maddələrinə və "Azərbaycan Respublikasının Mərkəzi Seçki Komissiyasına və dairə seçki komissiyalarına seçki hüquqlarının pozulması ilə əlaqədar şikayət və müraciətlərin verilməsi və onlara baxılması qaydaları haqqında Təlimatın tələblərinə uyğun olaraq, Azərbaycan Respublikası Mərkəzi Seçki Komissiyasının nəzdində ekspert qrupunun üzvləri tərəfindən nəzərdən keçirilərək bu barədə müvafiq rəylər verilmiş və Mərkəzi Seçki Komissiyasının iclasında baxılmışdır.

Müraciətlərdə göstərilən halların dairə seçki komissiyaları tərəfindən araşdırılmalı olduğunu nəzərə alaraq, şikayətlər aidiyyəti üzrə araşdırılması və tədbir görülməsi üçün müvafiq seçki dairələrinin dairə seçki komissiyalarına göndərilməlidir.

Belə ki, Azərbaycan Respublikası Seçki Məcəlləsinin 31.1.1 və 31.1.2-ci maddələrinə əsasən seçki dairəsinin ərazisində Azərbaycan Respublikası vətəndaşlarının seçki hüquqlarına riayət olunmasına nəzarəti, Seçki Məcəlləsinin qaydalarının pozulması ilə bağlı şikayətlərə baxıb öz səlahiyyətləri daxilində qərarların qəbul edilməsini dairə seçki komissiyaları həyata keçirir.

Azərbaycan Respublikası Seçki Məcəlləsinə və yuxarıda göstərilən Təlimatın 8.6-cı bəndinə uyğun olaraq şikayət və ya müraciət aidiyyət qaydalarının pozulması ilə daxil olmuşdursa, onda həmin müraciətin aidiyyəti üzrə göndərilməsinə dair qərar qəbul edilməlidir.

Yuxarıda göstərilənləri əsas götürərək, Azərbaycan Respublikasının Mərkəzi Seçki Komissiyası Azərbaycan Respublikası Seçki Məcəlləsinin 19.4-cü, 28.2-ci, 112-ci, 112.1-ci maddələrinə və "Azərbaycan Respublikasının Mərkəzi Seçki Komissiyasına və dairə seçki komissiyalarına seçki hüquqlarının pozulması ilə əlaqədar şikayət və müraciətlərin verilməsi və onlara baxılması qaydaları haqqında Təlimat"ın 1, 2, 4, 6, 7 və 8-ci bəndlərinə əsasən **q ə r a r a  a l ı r :**

1. Vətəndaş Ataxan Kazımlının və digərlərinin 5 yanvar 2010-cu il tarixli 438 saylı müraciəti 66 saylı Biləsuvar seçki dairəsinin dairə seçki komissiyasına, vətəndaş Tahirə Köçəriyevanın 2010-cu il 5 yanvar tarixli 500 saylı müraciəti 83 saylı Ağcabədi-Ağdam seçki dairəsinin dairə seçki komissiyasına, vətəndaş Şakir Bünyatovun 2010-cu il 5 yanvar tarixli 514 saylı müraciəti 67 Cəlilabad şəhər seçki dairəsinin dairə seçki komissiyasına, vətəndaş İlqar Qasımovun və digərlərinin 7 yanvar 2010-cu il tarixli 562 saylı müraciəti 80 saylı İmişli-Beyləqan seçki dairəsinin dairə seçki komissiyasına aidiyyatı üzrə baxılması üçün göndərilsin.

2. Qərarın icrası barədə Azərbaycan Respublikasının Mərkəzi Seçki Komissiyasına məlumat verilsin.

3. Qərar dərc edildiyi gündən qüvvəyə minir.

| | |
|---|---|
| Sədr | Məzahir Pənahov |
| Katib | Natiq Məmmədov |
| Üzvlər | Fuad Cavadov |
| | Ramiz İbrahimov |
| | Validə Kazımova |
| | Qabil Orucov |
| | Tofiq Həsənov |
| | İlham Məmmədov |
| | Nizami Nadirov |
| | Azər Tağıyev |
| | Rövşən İsmayılov |
| | Almas Qəhramanlı |
| | Oktay Hümbətli |